A Z Ə R B A Y C A N R E S P U B L İ K A S I
BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ
S Ə R Ə N C A M I

№ 95 «19» 08 2020-ci il

"Binəqədi Rayonu İcra Hakimiyyəti başçısı yanında Mülki Müdafiə Qərargahının yaradılması haqqında"

Azərbaycan Respublikası Prezidentinin 18.04.1998-ci il tarixli 700 saylı fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının "Mülki Müdafiə haqqında" Qanununa əsasən mülki müdafiənin Binəqədi rayonu ərazisində fövqəladə hadisələr zamanı xüsusi tədbirlərinin yerinə yetirilməsi məqsədi ilə "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.15.7-ci, 4.15.7-ci, 4.15.8-ci, 4.15.14-cü və 6.8-ci bəndlərini nəzərə alaraq

qərara alıram:

1. Binəqədi Rayonu İcra Hakimiyyəti başçısı yanında Fövqəladə halların və onların nəticələrini aradan qaldırılması üçün mülki müdafiə idarəetmə qüvvələrinin yaradılması məqsədi ilə Mülki Müdafiə Qərargahının tərkibi aşağıdakı qaydada təsdiq edilsin;

| | |
|---|---|
| - Binəqədi Rayonu üzrə Mülki Müdafiə Qərargahının rəhbəri Binəqədi Rayonu İcra Hakimiyyətinin başçısı | Elxan Allahverdiyev |
| - Mülki Müdafiə Qərargahının rəhbərinin müavini, Binəqədi rayonu üzrə Fövqəladə hallar və mülki müdafiə şöbəsinin rəisi | İsrafil Məmmədov |
| - Binəqədi Rayonu Dövlət Təhlükəsizlik Xidmətinin rəisi | Polad Abdullayev |
| - Binəqədi Rayonu Polis İdarəsinin rəisi | Musa Musayev |

- Binəqədi Rayonu İcra Hakimiyyətinin Rayon təsərrüfatı şöbəsinin böyük məsləhətçisi-memar — Şahin Musayev
- Binəqədi Rayonu Gənclər və İdman İdarəsinin rəisi — Namiq Tarverdiyev
- Binəqədi rayonu 276 nömrəli məktəbin direktoru — Bəhram Şiriyev
- 2 saylı rabitə xidmətlər mərkəzinin rəisi — Allahverdi Mayıloğlu
- Bakı Beynəlxalq Avtovağzal kompleksinin baş direktoru — Cümşüd Bağırov
- Binəqədi Elektirik Enerjisi Təhcizatı və Satışı İdarəsinin rəisi — Paşa Rzayev
- Biləcəri Enerji Təchizatı və Satışı İdarəsinin rəisi — Paşa Əliyev
- Binəqədi Rayon Su Kanal İdarəsinin rəisi — İntiqam Kərimov
- Bakı Regional Qaz İstismar Departamentinin Binəqədi Rayonu üzrə Texniki İstismar Xidmətinin rəisi — Ramiz Qafarov
- Binəqədi Rayonu Mənzil-Kommunal Təsərrüfatı Birliyinin rəisi — Elmin Zamanov
- Binəqədi rayon Dövlət Yanğından Mühafizə Hissəsi — Kamil Şərbətov
- Binəqədi Rayonu Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru — Fədai Hacıyev
- Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Binəqədi rayonu üzrə sektoru — Məhəbbət Nağıyev

2. Fövqəladə hadisələr zamanı mülki müdafiə tədbirlərinin hazırlanması və yerinə yetirilməsi rayonda mülki müdafiəyə bilavasitə Rayon İcra Hakimiyyətinin başçısı rəhbərlik edir.

3. Mülki Müdafiə xidmətlərinin və bazalarında MM ərazi qüvvələri yaradılmış, təsərrüfat obyektlərinin rəhbərlərinə tapşırılsın ki, 1 ay müddətində rəhbərlik etdikləri

CS CamScanner ilə skan edilib

MM xidmət və təsərrüfat obyektlərinin bazalarında yaradılmış MM ərazi qüvvələrinin ştat siyahısı, təşkili sxemi, hazırlıq planlarını və digər lazımi sənədləri hazırlayıb razılaşdırmaq üçün Binəqədi rayonu üzrə FH və MM şöbəsinin rəisinə təqdim etsinlər.

4. Rayon Fövqəladə Hallar Komissiyasına tapşırılsın ki, fövqəladə hallar zamanı lazım gələrsə rayon əhalisini seyrəkləşdirmək və köçürmək funksiyalarını yerinə yetirsin.

5. Nəzərə alınsın ki, mülki müdafiə siqnalları üzrə xəbərdarlığın təşkili aşağıdakı qaydada həyata keçirilir:

-Rayonun MM rəhbərliyi Rayon Polis İdarəsinin əməliyyat növbətçisi tərəfindən:

-Rayon FHK-nın üzvləri, MM xitmətlərinin rəisləri və təsərrüfat obyektlərinin rəhbərləri - rabitə və xəbərdarlıq xidməti tərəfindən.

6. Mülki müdafiə tədbirlərini planlaşdırmaq, onların yerinə yetirilməsini təşkil etmək və icrasını nəzarətdə saxlamaq Binəqədi rayonu üzrə Fövqəladə hallar və Mülki müdafiə şöbəsinin rəisi İsrafil Məmmədova həvalə edilsin.

Elxan Allahverdiyev

№ 66

*ƏSLİ İLƏ DÜZDÜR:*

**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** SƏNƏDLƏR ÜÇÜN Sabir Əliyev

CamScanner ilə taranıdı